**Azərbaycan Respublikası**

**Siyəzən Rayon İcra Hakimiyəti başçısının**

**S Ə R Ə N C A M I**

**№ 8** **02 fevral 2015-ci il**

**Siyəzən rayon əhalisinin tibbi müayinədən keçirilməsi ilə əlaqədar komissiya yaradılması haqqında**

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq 2015-ci il fevral ayının 2-dən may ayının 1-dək ölkə əhalisinin tibbi müayinədən keçirilməsi nəzərdə tutulmuşdur. Bununla əlaqədar Siyəzən rayon əhalisinin tibbi müayinədən keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Siyəzən rayon əhalisinin tibbi müayinədən keçirilməsini təmin etmək məqsədi ilə aşağıdakı tərkibdə komissiya yaradılsın:

Komissiyanın sədri

Təhminə Bəxtiyarova - Siyəzən Rayon İcra Hakimiyyəti başçının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri

Komissiyanın üzvləri:

Zəfər Əliyev - Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri

Etibar Heydərov - Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini-Aqrar məsələlər şöbəsinin müdiri

Xaqani Bəşirov - Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri

Mirələm Calalov - Mərkəzi Poliklinikanın baş həkimi

Dadaş Hümbətov - Regional Müalicə Diaqnostika Mərkəzinin baş həkimi

Mehman Yaqubov - Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru

2. Siyəzən rayon əhalisinin tibbi müayinədən keçirilməsinin qrafiki təsdiq olunsun (qrafik əlavə edilir).

3. Siyəzən rayonunun idarə, müəssisə və təşkilat rəhbərlərinə tapşırılsın ki, rəhbərlik etdikləri kollektivlərin qrafik əsasında tibbi müayinədən keçirilməsini təmin etsinlər.

4. Siyəzən Rayon İcra Hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə nümayəndələrinə tapşırılsın və bələdiyyə sədrlərinə tövsiyə edilsin ki, müvafiq ərazilərdə yaşayan əhalinin qrafik əsasında tibbi müayinədən keçirilməsini təmin etsinlər.

5. Komissiyaya tapşırılsın ki, Siyəzən rayonunun əhalisi arasında tibbi müayinə ilə bağlı təşkilati-izahat işlərin aparılmasını, tədbirin yüksək mütəşəkilliklə həyata keçirilməsini və hər ayın 1-də cari, may ayının 1-də isə ümumiləşdirilmiş yekun məlumatı tələb olunan forma üzrə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinə təqdim olunmasını təmin etsin.

6. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Arif Qasımov**